Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu dini və emosional istismarın qarşısını alır və işçilərin peşəkar inkişafını təmin etmək üçün mütəmadi olaraq təlimlər təşkil edir, eyni zamanda işçilərin həyat səviyyəsinin yüksəlişini təmin etməyi qarşısına məqsəd qoymuşdur.

Halal sertifikatlaşdırma fəaliyyətləri İslami qaydalar və əsaslara bağlı olaraq OIC/SMIIC standartları çərçivəsində beynəlxalq akkreditasiya tələbləri də nəzərə alınmaqla həyata keçirilir.
Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İslami iş etikası siyasəti aşağıdakı kimidir:

- İşçi heyətinə işgüzar peşəkarlıq istiqamətində üstünlük qazandırmaq; AQTİ hər bir işçinin özünü təkmilləşdirməsi üçün maddi-mənəvi mühit və imkanla təmin etməkdədir.
- Halal qazanc müqəddəsdir: AQTİ-in bütün gəlirləri müştərilərdən alınır. Bu məsələdə müvafiq təlimatımız olan Halal Sertifikatlaşdırma Qiymət Təlimatımıza əsasən qazanılan hər bir qazanc Halal Sertifikatlaşdırma müqaviləsinin şərtlərinə uyğun olaraq əldə edilir.
- İş yeri dinc bir mühit olmalıdır; AQTİ-də iş mühiti, əməyin mühafizəsi və təhlükəsizliyi şərtlərinə uyğun təmin edilib, əməyin mühafizəsi və təhlükəsizliyi riskləri müəyyən edilib və nəzarət tədbirləri həyata keçirilir. Qurumumuzda ibadət azadlığı var və biz ibadət borcunu yerinə yetirmək istəyən işçilərimizin ibadətə ayırdığı zamanı iş vaxtından hesab edirik.
- İş münasibətləri insani olmalıdır; AQTİ-də mobbinq tətbiq edilmir.
- Əmək bölgüsü və peşəkarlaşma; AQTİ-də çalışan halal sertifikatlaşdırma bölməsi işçiləri üçün təşkilati struktur təyin edilmiş və bu struktura uyğun olaraq vəzifə təlimatları və ixtisaslar müəyyən edilmişdir. İxtisas uyğunlaşmasına əsasən təşkilatlarda olan işçilərə inkişafı üçün mütəmadi təlim proqramları tərtib olunur, izlənilir və işçilərin lazımi təlimlərə cəlb olunması təmin edilir.
- İqtisadi fəaliyyətlərdə doğruluq; AQTİ-də halal sertifikatlaşdırma fəaliyyətlərindən əldə edilən qazanclar mühasibat və maliyyə bölməsi tərəfindən dəqiq və İslami iş etikasına uyğun olaraq uçota alınır. Bu qazancların mənbəyi və necə əldə edildiyi müqavilələr və fakturalarla qeyd olunur. AQTİ-in əldə etdiyi qazanc qanunvericiliyə əsasən vergiyə cəlb edilir, vergilər mütəmadi olaraq ödənilir və uçota alınır.
- İntizamlı iş fəaliyyəti; AQTİ-də əlaqəli proseslər müəyyən edilir və tətbiq edilir.
- Fürsət və imkanlardan bərabər istifadə etmək, özündən başqalarını da düşünmək;
- AQTİ-də çalışan bütün işçilərin iş mühiti və şərtləri bərabər şəkildə təyin edilir. AQTİ-də həyata keçirilən fəaliyyətlər sosial hüquqlara və əmək qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.
- Müştəri təşkilatların müdafiəsi; AQTİ bütün müştəri təşkilatlarının məxfiliyinə önəm verir. Bundan əlavə halal sertifikatlı məhsulun sosial halal etibarlılığına xələl gətirməyəcək bazar nəzarətini, müayinə və testlərini həyata keçirir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun**

**İdarə Heyətinin sədri** **Əli Nəbiyev**

____________________

Tarix M.Y